# Ukrayna Respublikasının Rovno vilayəti ilə Qəbələ rayonu arasında əməkdaşlıq əlaqələri genişlənir



Noyabrın 19-21 tarixlərində Qəbələ rayonunun rəhbərliyi Ukrayna Respublikasının Rovno vilayətinə səfər etmişdir. Rovno vilayət dövlət administrasiyasının başçısı Vasili Bertaş tərəfindən qarşılanan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdulayevə vilayətin sosial-iqtisadi inkişafı barədə ətraflı məlumat verilmişdir.

Səfər çərçivəsində dəyirmi masa ətrafında vilayətin iqtisadi və investisiya potensialının təqdimatına baxış keçirilmişdir. İnvestisiya təqdimatının əsas məqsədi hər iki ölkə xalqlarının rifahı naminə ikitərəfli əməkdaşlığın həyata keçirilməsi üçün Qəbələ rayonunun rəhbərliyini Ukraynanın Rovno vilayətinin potensialı ilə hərtərəfli tanış etmək, tərəflər arasında iqtisadi, mədəni, turizm sahələrinin qarşılıqlı surətdə əməkdaşlığını inkişaf etdirməkdən ibarət olmuşdur.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev vilayət rəhbərliyinin müşayiəti ilə bölgənin turizm potensialı, sənaye obyektləri və tarixi abidələri, mədəniyyət nümunələri, şəhərin görməli yerləri ilə yaxından tanış olmuşdur.

Görüşdən məmnunluğunu ifadə edən RİH başçısı Səbui Abdullayev vilayətin güclü turizm potensialının olduğunu, bölgə iqtisadiyyatının sürətlə inkişaf etdiyini və kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində böyük uğurların əldə edildiyini söyləmişdir.

# Novosibirsk şəhər merinin başçılıq etdiyi nümayəndə heyəti Qəbələdə

Rusiyanın Novosibirsk şəhərinin meri Qorodeskiy Vladimir Filippoviçin başçılıq etdiyi nümayəndə heyəti Qəbələdə səfərdə olmuşdur. Nümayəndə heyətinin tərkibinə Novosibirsk şəhər merinin müavini, şəhərin mühəndislik və memarlıq departamentinin rəisi Sergey Vladimiroviç Boyarskiy, Novosibirsk şəhər deputatları idarə heyətinin sədri xanım Nadejda Nikolaevna Boltenko qatılmışlar.



Rayon rəhbərliyi tərəfindən qarşılanan nümayəndə heyətinə rayonun infrastrukturu, sosial-iqtisadi göstəriciləri barədə ətraflı məlumat verilmişdir. Qeyd olunmuşdur ki, bu gün Qəbələ rayonunda, demək olar ki, bütün sahələr üzrə nəzərə çarpacaq dərəcədə uğurlar əldə edilmişdir. Bir çox mühüm əhəmiyyətli tədbirlərin, beynəlxalq konfransların burada keçirilməsi, ildən-ilə buraya gələn turistlərin sayının artması bunun əyani təzahürüdür.

Qonaqlara habelə çatdırılmışdır ki, rayonun sənaye müəssisələrində istehsal olunan məhsullar bir çox ölkələrə ixrac olunur. Bu da rayonun iqtisadiyyatında mühüm yer tutur.

Səfər çərçivəsində nümayəndə heyəti rayonun turizm sektoru, istirahət və sağlamlıq mərkəzləri ilə tanış olmuş, sənaye müəssisələrində istehsal prosesini yaxından izləmişdir.

Qəbələ rayonu ilə tanışlıqdan razı qaldıqlarını ifadə edən nümayəndə heyəti xoş təəssüratlarla Qəbələ şəhərindən ayrılmışdır.

**Zahir KƏRİMOV,**
**rayon icra hakimiyyətinin aparıcı məsləhətçisi.**

# «Azərbaycanda mənzil-kommunal sahəsində yeni münasibətlər» mövzusunda tədbir keçirilmişdir

İqtisadiyyat və Sənaye Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycanda mənzil-kommunal sahəsində yeni münasibətlər" mövzusunda konfrans keçirilmişdir. Qəbələ şəhərində, "Qafqaz Riverside" hotelin konfrans zalında təşkil olunan tədbirdə Şəki-Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan rayonların icra hakimiyyəti başçılarının sosial-iqtisadi məsələlər üzrə müavinləri, qəsəbə inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri iştirakı etmişlər. Tədbiri giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Rahib Əhmədov açmışdır. Dövlət başçısının ölkə regionlarının sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində Qəbələdə də yeni istehsal və xidmət müəssisələrinin, sosial infrastruktur obyektlərinin yaradıldığını, əhalinin məşğulluq səviyyəsinin yüksəldiyini, Qəbələdə belə tədbirin təşkilinin əhalinin mənzil-kommunal sahəsində yeni münasibətlərə dair məlumatlandırılmasının əhəmiyyətini vurğulamışdır.



Tədbirdə İqtisadiyyat və Sənaye Nazirliyinin Mənzil-kommunal siyasəti şöbəsinin müdiri Nizami Qasımov çıxış edərək ölkəmizdə uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində sosial infrastruktur təminatı həcminin artdığını və keyfiyyətinin yaxşılaşdığını vurğulamışdır. Natiq qeyd etmişdir ki, aparılan məqsədyönlü iqtisadi islahatlar nəticəsində digər sahələrlə yanaşı, mənzil-kommunal təsərrüfatı sektorunun inkişafında da əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu sahədə beynəlxalq tələblərə cavab verən qanunvericilik bazası - Azərbaycan Respublikasının Mənzil Məcəlləsi qəbul edilmişdir. 1 oktyabr 2009-cu il tarixdən qüvvəyə minmiş yeni Mənzil Məcəlləsi vətəndaşların mənzil hüququnun maneəsiz həyata keçirilməsində, sosial infrastrukturun inkişaf etdirilməsində, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsində və əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılmasında böyük əhəmiyyət kəsb etmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin, inkişaf konsepsiyasının, dövlət proqramlarının və normativ hüquqi aktların layihələrinin hazırlanması Nazirliyə tapşırılmışdır. N.Qasımov qarşıya qoyulmuş məqsədlərə nail olunmasının səmərəli mexanizminin yaradılması məqsədilə icra strukturları və bələdiyyə qurumları ilə birlikdə genişmiqyaslı maarifləndirmə və təbliğat işlərinin aparılması, ictimaiyyətin Mənzil Məcəlləsinin yenilikləri və üstünlükləri barədə məlumatlandırılmasının zəruriliyini qeyd etmişdir.

Nazirliyin mənzil-kommunal siyasəti şöbəsinin müdir müavini Elşən Əsədov təqdimatla çıxış edərək, Mənzil Məcəlləsinin üstünlükləri, yeni idarəetmə üsulları, Məcəllənin tətbiq edilməsi istiqamətində yerli icra hakimiyyəti orqanları və bələdiyyələrlə birgə işin təşkili barədə danışmışdır.

**(Ardı 5-ci səhifədə).**